**MƏDƏNİYYƏT DÜNYASI**
Elmi-nəzəri məcmuə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
XXVI buraxılış, Bakı, 2013

**МИР КУЛЬТУРЫ**
Научно-теоретический сборник
Азербайджанский Государственный Университет Культуры и Искусств,
XXVI выпуск, Баку, 2013

**THE WORLD OF CULTURE**
Scientific-theoretical bulletin
Azerbaijan State University of Culture and Art, XXVI edition, Baku, 2013

**UOT 008 (091)**

***İlqar Hüseynov***
***kulturologiya üzrə elmlər doktoru, professor***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
***Az - 1065, Bakı ş., İnşaatçılar pr. 39***
***Email:*** *ilqarhuseynoff@mail.ru*

# AZƏRBAYCAN XALÇAÇILIĞI TARİXİNƏ KULTUROLOJİ BAXIŞ

**Xülasə:** Azərbaycan xalçası şifahi xalq ədəbiyyatı ilə çox sıx bağlıdır. Muğam və aşıq sənətinin, Novruz bayramı YUNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni Irsinin Reprezentativ Siyahısma daxil edilməsi bunun əyani ifadəsidir. Bu dəyərlərdən sonra diqqət Azərbaycan xalçasının möhtəşəmliyini dünyaya təqdim etməyə doğru yönəldi. 2010-cu ildə Azərbaycan xalça sənəti YUNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısma daxil edilmişdir.

**Açar sözlər**: xalça, muğam, aşıq sənəti, mədəni irs, Azərbaycan.

Zəngin irsə malik Azərbaycan incəsənətinin dekorativ-tətbiqi ornament sahəsi böyük bir tarixi dövrü əhatə edir. Uzun illər boyu xarici qəsbkarlara tab gətirən, dözümlü, iradəli Azərbaycan xalqı ayrı-ayrı tarixi dövrlərdəki çətinliklərə, məhrumiyyətlərə baxmayaraq öz milli sənətkarlıq ənənələrini daha da təkmilləşdirmiş, bu ənənələri nəsillərdən nəsillərə çatdırmışdır. Azərbaycanın bədii sənətkarlıq nümunələri, o cümlədən müxtəlif sənətkarlar tərəfindən gözəl işlənilmiş xalçalar əsrlər boyu yalnız Azərbaycan və Qafqazda deyil, bir çox ölkələrdə şöhrət qazanmış, dünya sənətsevərləri tərəfindən çox yüksək qiymətləndirilmişdir.

Azərbaycan xalça sənətinin inkişaf tarixinin öyrənilməsi və bugünkü tədqiq olunmuş şəkildə xalqa çatdırılması görkəmli Azərbaycan sənətkarı, xalqımıza, həmçinin sənətsevərlərə zəngin tədqiqat xəzinəsi qoyan Lətif Kərimov tərəfindən həyata keçirilmişdir. Lətif Kərimov Azərbaycanda çox zəngin və böyük bir xalça muzeyi yaratmış, gələcək nəsillər üçün tədqiqat məktəbinin əsasını qoymuşdur.

Şərq xalçaçılıq sənətinin bir qolu olan Azərbaycan xalçaçılığı 2010-cu ilin noyabr ayında UNESCO-nun "Qeyri-maddi Mədəni İrs" siyahısına salınmışdır. Təəssüf

ki, dünya muzeylərində Azərbaycan xalçaları çox zaman Qafqaz, İran, bəzən hətta erməni xalçaları adı altında nümayiş etdirilir.

Azərbaycanda xalçaçılığın inkişafı haqqında Herodot, Klavdi Elian, Ksenofont və başqa qədim dünya tarixçibri məlumat vermişbr. Sasanilər dövründə (III-VII əsrlər) Azərbaycanda xalça sənəti daha da inkişaf etmiş, ipəkdən, qızıl-gümüş saplardan nəfis xalçalar toxunmuşdur. Alban tarixçisi Musa Kalankatlı (VII əsr) Azərbaycanda toxunan ipək parçalar və rəngarəng xalçalar haqqında məlumat vermişdir. Qızıl-gümüş saplarla toxunan və qaş-daşla bəzədilən xalça istehsalı XVI-XVII əsrlərdə ənənəvi xarakter almışdır. Bu cür xovsuz xalçaların əsas istehsal mərkəzləri Təbriz, Şamaxı və Bərdə şəhərləri idi. Baha başa gəldiyindən əsasən feodallar üçün hazırlanan belə xalçalar "zərbaf’ adlanırdı.

Azərbaycanın xalça məmulatlan və onlann bədii xüsusiyyətləri haqqında orta əsrlərə aid yazılı mənbələrdə maraqlı məlumatlar yer almışdır. X əsrə aid "Hüdud əl-abm" ("Dünyanın sərhədləri") əsərində naməlum müəllif Muğanda toxunulan palas və çullardan, Naxçıvanın zili toxunuşlu xalılarından məlumat vermiş, "Kitabi-Dədə-Qorqud" dastanında Azərbaycanın ipək xalçaları, Əbül Üla Gəncəvi, Nizami və Xaqaninin (XII əsr) əsərlərində xovlu və xovsuz xalçalar tərənnüm olunmuşdur [1].

Ayrı-ayrı tarixi dövrlərdə dünyanın məşhur tədqiqatçıları, tarixçiləri Azərbaycan sənətkarlığı ilə maraqlanmış, maraqlı faktlarla çıxış etmişdir. Məşhur yunan tarixçisi Ksenofont (b.e. əwəl V əsr) qeyd edir ki, geyim və zinətləri midiyalılardan iqtibas etmiş iranlılar, midiyalıların xalçalarını da işbdirdibr. Şərqin məşhur tarixçibrindən biri olan Əbu Cəfər Məhəmmədi Təbəri (839-923) özünün "Tərcümeyi-tarixi Təbəri" əsərində Azərbaycanın Şimal-Şərqində hicri ili 22-ci (643) ildə əla növlü xalçaların istehsal olunduğunu göstərmişdir.

X əsrin ikinci yansına (982-ci il) aid olan "Hüdud əl-abm) əsərində göstərilmişdir ki, "Muğan öz çuval və palazları, Naxçıvan, Xoy və Səlmas şəhərcikbri zili, xalça, tumanbağı və s. toxuma məmulatlan ib, Ərdəbil və Şirvan isə ipək və yundan toxunmuş rəngli parçalan ib şöhrət qazanmışdır [2].

Lətif Kərimov hesab edirdi ki, "...Qarabağ xalçaları (xüsusib xovsuz - ipək, cecim, vəmi, kilim-palaz) və məişətdə işlənən xalça məmulatı (məfrəş, çuval, heybə və xurcun) həт bədii, həm də texniki cəhətdən yüksək səviyyədə idi. X əsrdə yaşamış Əl-Müqəddəsi, Bərdə şəhərini və onun məşhur bazarını təsvir edərək belə yazır: "...bu bazarda ipək və paltarlar satılır. Burada toxunan xalçaların bərabəri yoxdur" [3,4].

Şirvan, Qarabağ və Təbriz-Ərdəbil xalça məktəblərinin orta əsrlərdə istehsal etdiyi xalçaların yüksək texniki və bədii keyfiyyətini nəzərə alaraq iddia etmək olar ki, həmin xalçaların bədii tərtibatında Naxçıvanlı Əcəmi Əbubəkr oğlu (XII əsr)", Əbdülmömin naqqaş Şərəfşah oğlu Təbrizli (XIII əsr), Əhməd Əyyub oğlu Naxçıvanlı və Nizam Bəngir (XIV əsr), Mirəli Təbrizi və məşhur rəssam Kəmaləddin Bəhzadın müəllimi olan Pir Seyid Əhməd Təbrizi (XV əsr), Ağamirək, Soltan Məhəmməd və xüsusilə Sadiq bəy Əfşari (XVI əsr), Qarabağ ustalarından Ismayıl naqqaş Ərdəbili (XVII əsr), Əvəzəli Muğanlı (XVIII əsr), Nəvvab, Usta Qəmbər Qarabaği, Mir Qaffar naqqaş, usta Rəsul, Uzun Həsən, usta Bağır, Hacı ağa, Məhəmməd Bağır (XIX əsr) və başqaları kimi görkəmli Azərbaycan sənətkarları yaxından iştirak etmişlər [3,4].

Azərbaycan xalçalarını dünya sənətinin bəzi görkəmli nümayəndələrinin əsərlərində də görmək olur. Niderland rəssamı Hans Memlinq (1433-1494) "Məryəm körpəsi ilə" əsərində Azərbaycanm "Şirvan" xalçasını təsvir etmişdir. Bu kimi xalça təsvirləri Hans Holbeynin (1497-1543) "Səfırlər" əsərində, Gəncə-Qazax növündən olan xalça təsviri XV *əsr,* Venesiya rəssamı Karlo Krivellonun (1430-1493) "Müjdə" əsərində və İntibah dövrünün başqa rəssamlarını əsərlərində görünür. Bu misallar bir də

ona sübut edir ki, Azərbaycan xalçaları çox zamanlardan bəri Avropa şəhərlərində geniş yayılmışdı" [3,5].

Görkəmli sənətkar, tədqiqatçı alim Lətif Kərimovun tədqiqatları sayəsində zəngin xalça sənətimizin bədii və texniki xüsusiyyətləri öyrənilmiş, aydınlaşdırılmış, gələcək nəsillər üçün böyük bir məktəb yaradılmışdır.

Xalçaların öyrənilməsi, mühafızəsi və sərgilənməsi məqsədi ilə ilk dəfə təşkil olunan ixtisaslaşdırılmış muzey dünyada Azərbaycan xalçaçılığının bütün növlərini, texnikasını, materiallarını nümayiş etdirən ən iri və əhəmiyyətli xalça kolleksiyasıdır.

Azərbaycan xalça sənətinin yaranması və inkişafı milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsidir. Azərbaycan xalça sənəti tunc dövründən başlayaraq inkişaf etmiş, daha da zənginləşərək bu günümüzə gəlib çatmışdır. Ehtimal ki, bu sənətin yaşı elə xalqımızın yaşına bərabərdir. Doğma torpağımızın rəngarəng boyaqların hazırlanmasına imkan verən zəngin bitki abmi və zərif yunu xalça sənətinin yaranmasına və inkişafına şərait yaratmışdır.

Ölkə ərazisində aparılan arxeoloji qazıntılar və yazılı mənbələrə görə, Azərbaycanda xalça toxuculuğu tunc dövründə, yəni 5 min il bundan əvvəl meydana gəlmişdir. Xalçaçılıq sənəti ölkənin təbiətini, tarixini və həyat tərzini əks etdirir. Tarixi mənbələrə görə, Azərbaycan orta əsrlər dövründə Şərqdə xovlu və xovsuz xalçaların istehsalına görə mühüm mərkəzlərdən biri olmuşdur. Azərbaycan xalçaları qədim dövrlərin sənət nümunələri kimi bütün dünyada məşhurdur. VI-VII əsrbrdə Azərbaycanın şimal-şərq hissəsi yüksək keyfiyyətli xalça istehsalına görə mərkəz rolunu oynamış, Azərbaycan xalçaları bütün dünyada ticarət vasitəsi olmuşdur. Ölkədə müxtəlif toxunuş və ornamentlərlə zəngin olan saysız-hesabsız xalça növbri yaranmışdır [4].

Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövbt muzeyində saxlanan çoxsaylı xovlu və xovsuz xalçalar, xalça məmulatı, zərgərlik, bədii tikmə, bədii metal, saxsı və şüşə məmulatlarından ibarət 10 minə yaxın muzey eksponatlar böyük bədii əhəmiyyət kəsb edir.

Geniş diapazonlu Mühafızə fondunun çoxşaxəli fəaliyyəti xalçaçılığın digər Azərbaycan dekorativ-tətbiqi sənət növləri ilə sıx üzvi əlaqəsi ilə şərtlənir. Muzeyin yaranması ağır zəhmət bahasına başa gəlmişdir. Qısa müddət ərzində Azərbaycanm müxtəlif rayonlarından ən yaxşı xalça nümunəbri toplanmış, onların toxunma texnikası və boyanması öyrənilmiş, ən yaxşı xalça dəzgahları və alətləri müəyyənləşdirilmişdir.

Azərbaycan xalçaları öz texniki xüsusiyyətlərinə görə xovlu və xovsuz olurlar. Xovsuz xalçalar toxuculuq sənətinin ən erkən dövrünə təsadüf edir. Xovsuz xalçalar öz toxunma üsuluna, kompozisiya quruluşuna, ornament zənginliyinə və rəng koloritinə görə bir-birindən fərqlənən 8 növə bölünür: Palas, Cecim, Ladı, Kilim, Şəddə, Vərni, Zili, Sumax.

Hazırda Azərbaycanda xalçaçılığın inkişafı geniş imkanlar yaradılmışdır. Xalçaçılıq sənət və elm sahəsi kimi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasmda, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və incəsənət kolleclərində tədris olunur [5].

1967-ci ildə yaradılmış Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Azərbaycan milli mədəniyyətinin zəngin xəzinəsi hesab edilir. Bütün dünyada məşhur olan bu muzey xalqımızın əsrlər boyu yaratdığı əvəzsiz sənət nümunələrinin mühafızə məskəni olmaqla bərabər, xalq yaradıcılığının yüksək nailiyyətləri və müasir ustaların ən yaxşı əsərlərini öyrənən, eləcə də tətbiq edən özünəməxsus elmi mərkəzə çevrilmişdir.

Muzeyin daimi ekspozisiyası 1993-cü ilə qədər Bakının qədim hissəsi olan İçərişəhərdə, XIX əsrin memarlıq abidəsi olan binada yerləşirdi. Ekspozisiya dekorativ-

tətbiqi sənətin öyrənilməsinə xidmət etməklə bərabər, burada xalq sənətinin bədii əhəmiyyəti onun tarixlə, Azərbaycan xalqının mədəniyyəti ilə dərin əlaqəsi açılıb göstərilir.

Muzeyin sərgi fəaliyyəti öz həcminə görə bütün dekorativ-tətbiqi sənət növlərini əhatə edir. Ekspozisiya ilə yanaşı Azərbaycanda və Avropada, Asiyanın şəhərlərində açılan sərgilər ABŞ, İngiltərə, Fransa, İtaliya, Almaniya və başqa ölkə tamaşaçılarını Azərbaycan dekorativ-tətbiqi sənəti ilə tanış edir.

Muzeyin yaxından iştirakı ilə 1983-cü ildə Bakıda keçirilmiş Şərq xalçaçılığı üzrə Beynəlxalq Simpoziumda dünyanın ən görkəmli xalça mütəxəssisləri iştirak etmişlər.

Bakının bir çox yerlərində muzey tərəfindən kompleks sərgilər təşkil edilmişdir. Həmin sərgilərdə xalçaçılığın bütün növləri, texnikası nümayiş etdirilmişdir. Muzey həmçinin bir çox el sənətkarlarının, tətbiqi sənət ustalarının fərdi və nümunəvi sərgilərini təşkil etmişdir.

Muzey bu qədim el sənəti üzrə xalq istedadının həqiqi əhəmiyyətini, onun tarixi və sosial təcrübəsini üzə çıxararaq özünün yeni - ikinci ömrünü yaşayır, geniş fəaliyyəti ilə diqqəti cəlb edir [6, 134-137].

XVI-XVII əsrlərə aid Azərbaycan xalçaları forma və məzmun, toxunma üsullarına görə rəngarəng olmuşdur. Həmin xalçaların üzərində insan, heyvan rəsmləri, gülçiçək naxışlan ilə yanaşı süjetli kompozisiyalar da əks olunmuşdur.

Görkəmli xalq sənətkarları ilə yanaşı rəssam xalçaşünaslar da bu sənəti böyük məhəbbətlə inkişaf etdirmişlər. Rəssam xalçaşünaslardan Lətif Kərimovun "Şəbi Hicran", "Bahar", "Əsrlərin nəgməsi", "Şuşa", "Əcəmi", Kamil Əliyevin "Tirmə", "Butalı", "Xonça", "Nəsimi", 'Atatürk", Cəfər Mücirinin "Füzuli", "Saib Təbrizi" və digər sənət incibri dünya xalçasevərlərini heyran qoymuşdur.

L.Kərimovun "Əcəmi" süjetli xalçası YUNESKO-nım Parisdəki daimi sərgisinin kolleksiyasma, "Əsrbrin nəğməsi" adlanan digər nadir xalçası isə "Kolagi" (Böyük Britaniya) firmasının nadir sənət incilərindən ibarət olan xüsusi kollegiyasına daxil edilmişdir.

Azərbaycan xalçaları özünəməxsus bədiiliyə, gözəlliyə malikdir. Bu əvəzsiz sənət nümunələrində əп çox nəbati ünsürlərdən bəzək vasitəsi kimi istifadə edilmişdir. Müxtəlif növ gül-çiçəklər, ağac ünsürlərinin birləşməsindən əmələ gələn ornamentlər, ənənəvi nəbati bəzəklərindən olan sərv, nar, ərik ağaclarının, lab, qızılgül, qərənfil, nərgiz və gülbrin, çiçəklərin təbii rənglərdə təsviri ayrı-ayrı xalçaların parlaqlığını, toxunma texnikasının zərifliyini daha aydın şəkildə nəzərə çatdırır.

Görkəmli xalçaşünas alim Lətif Kərimovun Azərbaycan, rus və ingilis dilbrində nəşr edilmiş dörd cildlik "Azərbaycan xalçası" monoqrafıyası zəngin xalçaçılıq ensiklopediyasına çevrilmişdir. Azərbaycanda dövlət xalça və xalq tətbiqi sənəti muzeyi ilk dəfə Azərbaycanda yaranmışdır. YUNESKO-nun dəstəyi ib 1983-cü ildə "Şərq xalçaları sənətinə dair ilk beynəlxalq simpoziumun Bakıda keçirilməsi Azərbaycanın bütün dünyanı heyran qoyan zəngin xalça sənəti diyarı olduğuna dəlalət edir.

Azərbaycanın həm bədii, həm də texnoloji cəhətdən ən dəyərli xalçaları hazırda Parisin Dekorativ Sənətbr və Luvr muzeyindədir. Bu xalçalarm əksəriyyəti mövzu etibarilə ənənəvi xarakter daşısa da, yəni əsasən «ovçuluq» və «bağ-bağça» səhnələrinə həsr edilsə də kompozisiya etibarilə müxtəlifdir. Bu baxımdan eyni mövzulu iki xalça maraq doğurur. Birinci xalça Parisin Dekorativ Sənətlər Muzeyindədir. Uzunluğu 410 sm, eni 350 sm. olan bu xalçanın ara sahəsində tünd rəngli ornamental kətəbə verilmişdir. Meyvə ağacları: alma, ərik rəngarəng çiçəkbr açmış, sərv ağacları isə yamyaşıl gələm tək göylərə ucalmışdır. Gül-çiçək və budaqlar üzərinə qonmuş quşlar

sanki bu gözəlliyə məftun olaraq cəh-cəh vururlar. Ağac kölgəsi altda ritmik hərəkətdə verilən bəbir, tülkü və ceyran sanki bu sakitliyi pozmağa cəhd edirlər. Xalçanın üç haşiyəli yeləni ara sahədə verilən bəzəklərlə ümumi bir uyğunluq təşkil edir. Parisin Luvr muzeyində nümayiş etdirilən XVI əsrə aid Azərbaycan xalçası mövzu etibarilə bundan əwəl təsvir etdiyimiz xalçaya bənzəsə də, ondan hər ümumi kompozisiya, hətta ornament bəzəklərinə görə xeyli fərqlənir. Uzunu 783 sm, eni 379 sm ölçüdə olan bu xalçanm haşiyəli arа sahənin mərkəzi hissəsində böyük həcmdə ornamental kətəbə verilmişdir. Kətəbənin içərisində nəbati ornament ünsürləri və simmetrik səpkidə qurulmuş 4 əjdaha ilə Simurq quşunun mübarizə səhnəsini təsvir edən süjet əks olunmuşdur. Kətəbədən yuxarı və aşağı hissəbrində xalça boyu çoxlu ağac, gül-çiçək, heyvan, quş və dörd eyni tipli insan fiqurları yerbşdirilmişdir. Buradakı təsvirlər içərisində xalça üzərində 4 dəfə təkrar olunan ceyran üstünə atılıb onu parçalayan pələng fiquru xüsusilə canlı verilmişdir. Əvvəllər bu sənət əsəri Paris Notrdam kilsəsinin xüsusi əmlakı olmuş, XX əsrin əvvəllərində dövlət tərəfmdən nəzarət altına alınaraq, geniş tamaşaçı kütləsinə göstərilmək üçün Luvr muzeyinə gətirilmişdir [7, 67-70].

Son illər Azərbaycan Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasəti və xalqımızm mədəniyyətinə göstərdiyi yüksək qayğısı, həmçinin Azərbaycan qeyri-maddi mədəni irsinin beynəlxalq səviyyədə təbliği məqsədib Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın dəstəyi ilə həyata keçirilən silsilə tədbirlər nəticəsində milli-mənəvi dəyərlərimizin qorunması və təbliği yeni mərhələyə qədəm qoyub.

Azərbaycan xalçası şifahi xalq ədəbiyyatı ilə çox sıx bağlıdır. Muğam və aşıq sənətinin, Novruz bayramının YUNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilməsi bunun əyani ifadəsidir. Bu dəyərbrdən sonra diqqət Azərbaycan xalçasımn möhtəşəmliyini dünyaya təqdim etməyə doğru yönəldi. 2010-cu ildə Azərbaycan xalça sənəti YUNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni irsinin Reprezentativ Siyahısına daxil edilmişdir. Odur ki, Azərbaycan xalçaçılıq məktəbi mövcuddur, dünya tərəfındən tanınır. Heç kim bu sənət nümunələrini mənimsəyə, oğurlaya, özününküləşdirə bilməz [8].

**Ədəbiyyat:**


1. http://www.azerbaiians.com/content 184 az.html
2. "Hüdud əl-Aləm". Leninqrad, 1930, səh. 32b., 33a
3. Kərimov L. Azərbaycan xəlçəsi. Bakı-Leninqrad, 1961, səh. 4.
4. http://iurnal.meclis.gov.az/news.php?id=301
5. http://www.azerbaijans.com/content_184_az.html
6. Muzeyşünashq. Dərslik (ADMİU). Bakı, Mars-Print, 2002.
7. Əmirxanov S., Hüseynov İ. Dünya muzeyləri və tarixi mədəniyyət abidələri. Dərs vəsaiti. Bakı, Mars-Print, 2008.
8. http://iumal.mecris.gov.az/news.php?id=301



**Ильгар Гусейнов**


**Культурный взгляд на историю Азербайджанского ковра**

**Резюме**


Азербайджан обладает богатым наследием декоративно-прикладного искусства, охватывающий большой исторический период.



**Ключевые слова**: ковер, музыка, мугам, искусство, культурное наследие.

**İlqar Huseynov**

**Cultural look at Azerbaijani carpetry**

**Summary**

Azerbaijan possesses a rich heritage of the arts and crafts, ornamental art, covering the big historical period. The Azerbaijani people which have transferred to the separate historical periods of difficulty and deprivation, oppression of foreign aggressors, nevertheless, managed to keep and improve the national traditions of rug weaving and to transfer to the future generations.

**Keywords**: carpet, music, minstrel music, art, cultural heritage

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18.09.2013**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 25.09.2013**
**Məqalənin çapa qəbul olunma tarixi: 04.12.2013**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:** fəlsəfə üzrə elmlər doktoru, professor Niyazi Mehdi
**ADMİU-nun Elmi Şurasının 05 dekabr 2013-cü il, 03 saylı qərarı ilə çap olunur.**